# Saz musiqisi konserti keçirilib

**Qarabağ Universitetində "Saz musiqisi axşamı" adlı solo konsert keçirilib. Konsertin müəllifi Qarabağ Universitetinin İncəsənət fakültəsinin İnstrumental ifaçılıq kafedrasının saz müəllimi Aslan Muradoğludur. O, yaradıcılığının ilk solo konsertini istedadlı tələbələri ilə eyni səhnədə bölüşüb.**



Konsertdə Azərbaycan klassik aşıq havaları müasir üslubda təqdim olunub, xalq mahnısı və bəstəkar əsəri ifa edilib. İfalar tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb. Konsertdə ifaçıları balabanda Gəncəvi Kəlbəcərli, pianoda Ülvi İsmayılov, nağarada Murad Nağızadə, zərb alətində Kamal Fərziyev müşayiət ediblər.

Azərbaycan.- 2025.- 1 iyun (№113).- S.9.